# Milli Qurtuluş Günü Ağdamda ikiqat sevinclə qeyd olunur





Ağdamda Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib. "Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda keçirilən tədbirdə rayonun, eləcə də hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, rayon ziyalıları iştirak etmişlər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin mərkəzi meydanda ucaldılmış abidəsi ziyarət edilmiş, önünə tər gül dəstələri düzülmüşdür. Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının xatirələri birdəqiqəlik sükutla yad edilmişdir.

RİH-in başçısı Vaqif Həsənov və digər natiqlər çıxış edərək Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra istər daxili, istərsə də xarici siyasətdə mühüm yeniliklərin baş verməsindən, Ümummilli Liderin kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsindən, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasından bəhs etmişlər. Qurtuluşdan başlanan inkişaf yolunda qazanılan nailiyyətlərin də vurğulandığı çıxışlarda səslənən fikirlərdə bu gün Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq işləri qurtuluşun töhfələri kimi dəyəndirilmişdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 15 iyun.- S.16.